www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-16 (1820) 30 sentybar 2025-ci il




## ATU-nun rektoru 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda çıxış edib

**"Sea Breeze Sağlamlıq Vadisi" layihəsi regionun ən böyük tibbi kompleksi kimi formalaşacaq**

səh. 3

### Anım Günündə Zəfər parkı ziyarət olunub

səh. 2

### Kursantlar and içib

səh. 4

### Nevrologiya kafedrası xüsusi diploma layiq görülüb

səh. 4



### Üzgüçülüyün inkişafı üçün əməkdaşlıq memorandumu imzalanıb

ATU-nun da qoşulduğu memorandum çərçivəsində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur

səh. 2

### Əczaçılar insan sağlamlığının keşiyində duran mütəxəssislərdir

*Tahir Süleymanov: Dərman vasitələrinin təhlükəsizliyi problemi qlobal məsələyə çevrilib*

səh. 6

### Ürək-damar sistemi xəstəliklərinin risk faktorları

*Ürəyimizin "yaşa hələ" deməsini istəyiriksə, həyat tərzimiz sağlam olmalıdır*

səh. 7



### Şəhid övladları ilə görüş keçirilib

Prorektor Mahir Səfərov: Universitet rəhbərliyi həmişə sizin yanınızdadır

səh. 3

## ATU-nun professoru “Əmək” ordeni ilə təltif edilib



Azərbaycan Tibb Universitetinin II Daxili xəstəliklər kafedrasının müdiri, professor Rafiq Məmmədhəsənov 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilib.
Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, o bu ordenə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə layiq görülüb.
Qeyd edək ki, Rafiq Məmmədhəsənov uzun illər ATU-nun Elmi işlər üzrə prorektoru vəzifəsində çalışıb. 3 çağırış ((III, IV, V) Milli Məclisin deputatı olub.

# Anım Günündə Zəfər parkı ziyarət olunub

**27 sentyabr – Azərbaycanın ərazi bütövlüyünə aparan şanlı yolun - Vətən müharibəsinin başlanmasından 5 il ötdü.**



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamına əsasən, 27 sentyabr ölkəmizdə Anım Günü kimi qeyd edilir.
Anım Günü ilə əlaqədar Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Zəfər parkını ziyarət edib. Xatirə daşının önünə gül dəstələri düzülüb, şəhidlərin əziz xatirəsi ehtiramla anılıb. Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, universitetimizin prorektorları və klinika rəhbərləri də ziyarətdə iştirak ediblər.
Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun şücaəti, xalq və dövlətin birliyi nəticəsində əldə olunan Zəfərə və qəhrəmanlıq salnaməsinə köklənərək, tariximizin ən şərəfli səhifələrindən biri yazılıb. 27 sentyabr - Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi və uzaq keçmişdən başlayan ədalətsiz tarixi prosesi dəyişən, ərazi bütövlüyümüzün bərpa edilməsi, suverenliyin tam bərqərar olması və torpaqlarımızın əsl sahiblərinə əbədi qaytarılmasına yol açan qürurverici gündür.
Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı hərbçilərimizə şəfa versin!

# Azərbaycan səhiyyəsi və tibb elminin tarixinə adı əbədi həkk olunmuş alim

### Akademik Mustafa Topçubaşovun 130 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib





**Səhiyyə Nazirliyi və akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin birgə təşkilatçılığı ilə görkəmli cərrah-alim Mustafa bəy Ağabəy oğlu Topçubaşovun 130 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**
Beynəlxalq konfransda Azərbaycan Respublikası Prezidenti Aparatının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Səhiyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) rəhbər şəxsləri, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, həmçinin Azərbaycan, Türkiyə və Gürcüstanın tanınmış alimləri iştirak ediblər.
Tədbirin açılışında çıxış edən səhiyyə naziri Teymur Musayev elmi-praktik konfransın Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında” Sərəncamından irəli gələn vəzifələr çərçivəsində təşkil edildiyini vurğulayıb. Nazirin sözlərinə görə, görkəmli alimin elmi dühası geniş spektrli, çoxsahəlidir: “Akademik Mustafa Topçubaşov təkcə öz dövrünün deyil, Azərbaycan səhiyyəsi və tibb elminin tarixinə adı əbədi həkk olunmuş alimdir”.
Görkəmli alimin beynəlxalq miqyasda qazandığı nailiyyətləri xüsusilə vurğulayan nazir bildirib: "Cərrahların Lissabonda keçirilən XI Beynəlxalq Konqresində akademik Mustafa Topçubaşov Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilib. Bu da görkəmli alimin simasında dünya miqyasında Azərbaycan cərrahlıq elminə verilən yüksək dəyərdir".
Diqqətə çatdırılıb ki, akademikin "Analgezin" adlı ağrıkəsici kəşfi İkinci Dünya müharibəsi illərində əvəzsiz xidmət göstərib: “Hətta tanınmış Sovet akademiki Pyotr Kupriyanov bu kəşfi "Bakı neftinin müharibədə tanklara verdiyi töhfəyə" bənzətmişdir”.
Öz çıxışında AMEA-nın prezidenti İsa Həbibbəyli vurğulayıb ki, Mustafa Topçubaşovun yaratdığı elmi məktəb onun yetirmələrinin cərrahiyyənin təməl biliklərinə mükəmməl bələd olmaları, təbabətdə mühüm yeniliklərə imza atmaları ilə fərqlənir. Topçubaşovun Azərbaycan Milli Elmlər Akademiyasının 15 təsisçisindən biri olduğunu vurğulayan İsa Həbibbəyli, həmçinin görkəmli alimlə bağlı xatirələrini bölüşüb, onun hər zaman gənclərə istiqamət verərək onların elmə yönəlməsində xüsusi səy göstərdiyini deyib.
M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin direktoru Rauf Ağayev görkəmli alimin elmi-pedaqoji və kadr hazırlığında, həmçinin ictimai-siyasi fəaliyyətində tarixi xidmətləri barədə məlumat verib: “Həm bir həkim, həm də bir alim kimi Mustafa Topçubaşovun irsi Azərbaycan səhiyyəsinin və xüsusən də cərrahiyyəsinin formalaşmasında əvəzsiz rol oynayıb”.
Alimin oğlu, Mərkəzi Klinikanın baş direktorunun müavini Ceyhun Topçubaşov çıxış edərək, atasının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına, həmçinin tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.
Sonra akademik Mustafa Topçubaşova həsr edilmiş sənədli film nümayiş olunub.
Beynəlxalq elmi-praktik konfrans öz işini panel sessiyalarla davam etdirib.

# Elm və ali təhsildə yeniliklər və hədəflər müzakirə olunub

### Rektor, professor Gəray Gəraybəyli tədbirdə iştirak edib

**Sentyabrın 19-da ali təhsil müəssisələri rəhbərlərinin iştirakı ilə “2025-2026-cı tədris ili: elm və ali təhsildə yeniliklər və hədəflər” mövzusuna həsr olunmuş tədbir keçirilib.**



Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, həmçinin digər ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.
Nazir E.Əmrullayev tədbirdə çıxış edərək yeni tədris ilinə dair prioritet istiqamətlər, qarşıda duran vəzifələr və görüləcək işlər barədə ətraflı məlumat verib.
Nazir ali təhsilin məzmununda həyata keçirilən yeniliklərin əhəmiyyətini vurğulayıb, dövlət tərəfindən maliyyələşdirmə mexanizmlərinə dair yeni yanaşmaların tətbiqi, elm və təhsilin inteqrasiyası, ali məktəblərin beynəlxalq reytinqlərdə mövqelərinin gücləndirilməsi kimi məsələlərin xüsusi önəm daşıdığını diqqətə çatdırıb.
Görüş zamanı 2025-2026-cı tədris ili üzrə ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələri təqdim olunub, yeni məzmunlu təhsil proqramlarının tətbiq sahəsinin genişləndirilməsi və maliyyələşdirilməsi, elmin inkişafında prioritet istiqamətlərin müəyyənləşdirilməsi, ali təhsildə idarəetmənin keyfiyyətinin və beynəlxalq əməkdaşlıq imkanlarının artırılması istiqamətində fikir mübadiləsi aparılıb.
Tədbirdə digər cari məsələlər müzakirə olunub, ali təhsil müəssisələrinin inkişafı və qarşıdakı dövrdə həyata keçiriləcək fəaliyyət planları ilə bağlı təkliflər səsləndirilib.

**Avropa Su İdmanı Federasiyası (EA), Azərbaycan Üzgüçülük Federasiyası (ASF), Azərbaycan Tibb Universiteti (AMU) və Azərbaycan İdman Akademiyası (ASA) arasında çoxşaxəli əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan memorandum imzalanıb.**

# Üzgüçülüyün inkişafı üçün əməkdaşlıq memorandumu imzalanıb

### ATU-nun da qoşulduğu memorandum çərçivəsində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur



Tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov bu əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağına inandığını söyləyib.
Yenidən Bakıda olmaqdan məmnunluğunu dilə gətirən Avropa Su İdman Növləri Federasiyasının (European Aquatics) prezidenti Antonio Silva isə akademiya ilə əməkdaşlığın federasiya üçün əhəmiyyətli addım olduğunu söyləyib.
ASF-nin prezidenti Zaur Əliyev bu memorandumun üzgüçülüyün inkişafına təkan verəcəyini diqqətə çatdırıb.
ASA-nın rektoru Fuad Hacıyev federasiya ilə birgə layihələr həyata keçirəcəklərini bildirib. O, milli komandanın beynəlxalq yarışlara hazırlığı üçün akademiyada hər bir şəraitin yaradılacağını deyib.
Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli vurğulayıb ki, bu əməkdaşlıq çərçivəsində təhsil, elmi-tədqiqat, idman tibbi və peşəkar üzgüçülüyün inkişafı istiqamətində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur.
Rəsmi çıxışlardan sonra memorandum imzalanıb. Sonra Antonio Silvaya Azərbaycan Üzgüçülük Federasiyasının forması hədiyyə edilib.

# Türkiyəli professor ATU-nun rektoru ilə görüşüb



Sentyabrın 24-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə Acıbadəm Xəstəxanasının ortoped-travmatoloqu, professor Mehmet S.Binnet arasında işgüzar görüş keçirilib.
Görüşdə tərəflər ortopedik cərrahiyyə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, yeni elmi tədqiqatların təşkili və birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə ediblər.
Azərbaycan əsilli professor M.S.Binnet universitetdə aparılan işləri yüksək qiymətləndirərək, gələcəkdə tələbələrin nəzəri və praktiki biliklərinin artırılması üçün müxtəlif təlimlərin və seminarların təşkilində əməkdaşlığa hazır olduğunu bildirib.
Professor G.Gəraybəyli isə ATU-da elmi-tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi və beynəlxalq əlaqələrin daha da gücləndirilməsinin prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. O bu əməkdaşlığın universitetin ortopedik cərrahiyyə sahəsindəki potensialının genişlənməsinə töhfə verəcəyinə inandığını qeyd edib.
Görüşdə Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak ediblər.

# ATU-nun rektoru 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda çıxış edib

## "Sea Breeze Sağlamlıq Vadisi" layihəsi regionun ən böyük tibbi kompleksi kimi formalaşacaq

**Bakıda Prezident İlham Əliyevin himayəsi altında 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (1st Azerbaijan International Investment Forum – "AIIF 2025") keçirilib. Forum çərçivəsində təşkil olunan panel sessiyalarda səhiyyə naziri Teymur Musayev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov və digərləri iştirak edib.**

Forum çərçivəsində baş tutan "Sea Breeze Sağlamlıq Vadisi: Azərbaycanın tibbi mükəmməlliyə qlobal qapısı" adlı panel sessiyada Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də çıxış edib. Rektor bildirib ki, "Sea Breeze Sağlamlıq Vadisi" layihəsi elm və təhsilin resurslarını birləşdirməklə elmin inkişafına böyük töhfə verə bilər. Bu layihə regionun ən böyük tibbi kompleksi kimi formalaşaraq, yalnız sağlamlıq xidmətləri deyil, eyni zamanda təhsil və tədqiqat sahəsində də mühüm mərkəz rolunu oynayacaq. "Azərbaycan Tibb Universiteti və "Sea Breeze Health Valley" arasında strateji tərəfdaşlıq çərçivəsində tələbələrin yüksək səviyyəli klinik və elmi hazırlığı üçün müəyyən istiqamətlər üzrə fəaliyyət aparıla bilər. Xüsusi ixtisaslaşmış tədqiqat mərkəzləri yaradıla və ya onlarla sıx əməkdaşlıq edilə bilər", - deyə rektor G.Gəraybəyli bildirib.

O əlavə edib ki, bu cür əməkdaşlıq kritik əhəmiyyətə malik sahələrdə peşəkar ekspertlərin hazırlanmasına və yeni biliklərin yaradılmasına şərait yaradacaq: "Geniş əməkdaşlıq sayəsində dünyanın aparıcı universitetləri ilə müxtəlif təhsil səviyyələrində konfransların, forumların keçirilməsi, ikili diplomların reallaşdırılması mümkün olacaq. Qarşılıqlı əməkdaşlıq tələbələrə qabaqcıl tədqiqatlarda iştirak etmək imkanı yaradacaq, həmçinin tibdə innovasiyaların inkişafına kömək edəcək".





Tədbir iştirakçıları çıxışlarında dövlət strukturlarının, investorların və layihə rəhbərliyinin birgə əməkdaşlığı sayəsində beynəlxalq standartlara cavab verən tibbi klasterin yaradılması imkanlarına dair fikirlər səsləndiriblər. Bildirilib ki, "Sea Breeze Sağlamlıq Vadisi" layihəsi Azərbaycanın səhiyyə sisteminin modernləşdirilməsi, rəqəmsal tibbi xidmətlərin tətbiqi, əczaçılıq və biotexnologiya sahələrinin inkişafı baxımından mühüm addımdır.

Müzakirələrdə layihənin Azərbaycanın səhiyyə sisteminin gücləndirilməsi, sosial xidmətlərin və infrastrukturun inkişafı istiqamətində rolu diqqət mərkəzində olub. Çıxışlarda Azərbaycanın regional tibbi xidmətlər, əczaçılıq və biotexnologiya istehsalı, rəqəmsal səhiyyə həlləri üzrə mərkəzə çevrilməsi imkanları vurğulanıb.

# Şəhid övladları ilə görüş keçirilib

## Prorektor Mahir Səfərov: Universitet rəhbərliyi həmişə sizin yanınızdadır

**Universitetimizdə təhsil alan şəhid övladları ilə görüş keçirilib. Tədbirdə çıxış edən Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov şəhid övladlarına ilk növbədə rektor, professor Gəray Gəraybəylinin salamını və xüsusi ehtiramını çatdırıb.**



Prorektor bildirib ki, şəhid ailəsi üzvlərinə hər kəsin mənəvi borcu var: "Çünki siz şanlı tarix yazan qəhrəmanlarımızın övladlarısınız. Hamımız bilirik ki, 27 sentyabr 2020-ci ildə başlanan II Qarabağ müharibəsində Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə sizin valideynləriniz böyük rəşadət göstəriblər. Onlar öz canları-qanları bahasına işğal altında olan torpaqlarımızı azad ediblər. Bu gün Qarabağda qürurla gəzə biliriksə, bu onların qəhrəmanlığının nəticəsidir. 27 sentyabr – Vətən müharibəsinin başlandığı gün ərəfəsində bir daha sizin dərdinizə şərik olmaq, acılarınızı bölüşmək istədik. Şükürlər olsun ki, igid vətən oğulları bizə qələbə sevinci yaşatdılar. İnanıram ki, sizlər hər zaman qəhrəman valideynlərinizin müqəddəs xatirəsinə layiq övladlar olacaqsınız".

Sonra 44 günlük şanlı zəfər yolunu özündə əks etdirən videoçarx nümayiş olunub. Tədbirdə çıxış edən tələbələr və Tələbə Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri 27 sentyabr – Anım Gününün həm hüzn, həm də qürur dolu tarix olduğunu vurğulayıblar. Onlar şəhidlərin qəhrəmanlığının Azərbaycan xalqının birliyi və gücünün simvolu olduğunu bildiriblər. Tələbə Həmkarlar İttifaqı Komitəsinin II MPF üzrə sədri Aytac Şükürlü qeyd edib ki, Vətən müharibəsi xalqımızın gücünün bütün dünyaya nümayişi idi: "Şəhidlərimizin qəhrəmanlığı gələcək nəsillər üçün əbədi nümunə olacaq. Bizim vəzifəmiz onların uğrunda can verdiyi vətəni sevmək, inkişaf etdirməkdir".

Şəhid övladları – Aybəniz Həşimova, Fidan Hüseynzadə, Aysu Elzamin və Mehman Rəhimli də çıxış edərək valideynlərinin qəhrəmanlıq yolunun onlarda həmişə qürur hissi yaratmaqla bərabər, qarşılarına böyük bir məsuliyyət də qoyduğunu söyləyiblər. Göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə təşəkkürlərini bildirən tələbələr, bütün şəhid ailələrinə səbr, Vətən qazilərinə cansağlığı diləyiblər.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov universitet rəhbərliyinin şəhid ailələrinə daim dəstək göstərdiyini vurğulayıb: "Şəhidlərin övladları ilə tanış olmaq, onların həyat hekayəsini eşitmək bizim üçün qürurvericidir. General Polad Həşimov və bütün şəhidlərimiz daim qəlbimizdədir. Rektor, professor Gəray Gəraybəyli başda olmaqla universitet rəhbərliyi hər zaman şəhid övladlarının yanındadır".

Görüşün sonunda bir daha şəhid övladlarına ehtiramını ifadə edən prorektor Mahir Səfərov, yaşanan ağrılara baxmayaraq, həyatın davam etdiyini, onları qarşıda yeni perspektivlərin gözlədiyini deyib və hər birinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

**Sentyabrın 18-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında rəhbər şəxslərin fakültə dekanları, kafedra müdirləri, Tədris departamenti və Ümumi şöbənin əməkdaşları ilə növbəti görüşü keçirilib.**



# Elektron sənəd dövriyyəsi sistemi diqqət mərkəzindədir

Professor-müəllim heyətinin də qatıldığı tədbirdə yeni dərs ilinin uğurla başlanması münasibətilə bütün əməkdaşları bir daha təbrik edən Tədris işləri üzrə prorektor, professor Anar Ağayev tədris prosesinin daim diqqət mərkəzində saxlanılmasının vacibliyini diqqətə çatdırıb. Universitetimizdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atıldığını deyən prorektor, pedaqoji kollektivin üzərinə xüsusi məsuliyyət düşdüyünü vurğulayıb. Bildirib ki, həmişə olduğu kimi, yeni tədris ilində də tələbələrin bilik və bacarıqlarının artırılması, müasir tibb elminin tələblərinə uyğun kadrların hazırlanması, tədris planlarının yenilənməsi prioritet istiqamət olaraq qalır.



Professor A.Ağayev qazanılan uğurlarla yanaşı, mövcud problemlərin də qısa müddətdə öz həllini tapacağına, qarşıda duran vəzifələrin yüksək səviyyədə icra olunacağına əminliyini ifadə edib.

Sonra Ümumi şöbənin əməkdaşı Nərmin Məcidova elektron sənəd dövriyyəsi sisteminin əsas tələbləri və yenilikləri haqqında məlumat verib. Bildirilib ki, elektron sənəd dövriyyəsi iş prosesini sürətləndirmək və şəffaflığı artırmaq üçün nəzərdə tutulub. İclasda, həmçinin hər bir əməkdaşın sənədlərinin vaxtında icrasının vacibliyi və sənədlərin icrasına ciddi nəzarət olduğu qeyd edilib. Sənəd dövriyyəsinin operativliyini təmin etmək məqsədilə mövcud problemlərin aradan qaldırılması üçün zəruri tədbirlər görülür.

Görüş zamanı əməkdaşları maraqlandıran suallar cavablandırılıb.

# Əcnəbi və vətəndaşlığı olmayan şəxslər imtahan verib

16-17 sentyabr tarixlərində Tədris Cərrahiyyə Klinikasında rezidentura və magistratura pillələrində təhsil almaq istəyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu üzrə imtahan təşkil olunub.



Qəbul prosesi "Azərbaycan Tibb Universitetinin rezidentura və magistratura təhsil səviyyələrinə 2025/2026-cı tədris ilində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu üzrə komissiya" tərəfindən aparılıb. İmtahanın məqsədi qəbul prosesinin mütəşəkkil və şəffaf şəkildə keçirilməsi, namizədlərin müvafiq hazırlıq səviyyəsinin yoxlanılması olub.

Müxtəlif ixtisaslar üzrə 41 namizəd sənəd təqdim edib. Onlar əvvəlcə Azərbaycan dili biliklərini müəyyənləşdirmək üçün test imtahanı verib, daha sonra isə professor-müəllim heyətinin iştirakı ilə keçirilən müsahibədə iştirak ediblər.

**Universitetimizdə 2025-2026-cı tədris ili üçün magistratura səviyyəsində tədrisə başlanılıb. Bu ildən etibarən 20 ixtisaslaşma üzrə magistratura proqramları həyata keçirilir.**

# Magistratura üzrə yeni dərs ilinə start verilib

Universitetimizdə 2025-2026-cı tədris ili üçün magistratura səviyyəsində tədrisə başlanılıb. Bu ildən etibarən 20 ixtisaslaşma üzrə magistratura proqramları həyata keçirilir.



Tədris ilinin əvvəlində baza kafedralarda yeni qəbul olunan magistrantların professor-müəllim heyəti və kafedra əməkdaşları ilə görüşləri təşkil olunub. Görüşlər zamanı tələbələrə tədris planı, ixtisaslaşma istiqamətləri və proqramların əsas məqsəd və vəzifələri barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, magistratura pilləsində həyata keçirilən proqramlar tələbələrin elmi-nəzəri biliklərinin artırılması, praktik bacarıqlarının təkmilləşdirilməsi və gələcəkdə peşəkar fəaliyyətə daha uğurlu şəkildə hazırlanmasına xidmət edir.

# Kursantlar and içib



**Yeni tədris ilinin başlanması münasibətilə Hərbi Klinik Hospitalın ərazisində Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi kursantlarının təntənəli andiçmə mərasimi keçirilib.**



Şəxsi heyətin düzülüşü barədə məruzə edildikdən sonra Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev kursantları və onların valideynlərini təbrik edərək kursantlara təhsildə, eləcə də xidmətdə uğurlar arzulayıb. Bildirib ki, Vətənə sədaqət andı içən kursantlarımızın öz bilik, bacarıq və təcrübələrindən istifadə edərək hərbi qulluqçulara daim zəruri tibbi yardım göstərəcəklərinə əmindir.

Təntənəli mərasimdə öz ürək sözlərini tədbir iştirakçıları ilə bölüşən kapitan Mehrab Əmirov və kursant valideynləri gənc kursantlara Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi anda sadiq olmağı, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirməyi, hərbi həkimlik peşəsinin sirlərini dərindən öyrənməklə şəxsi heyətin sağlamlığını qorumağı tövsiyə ediblər.

Hərbi tibb fakültəsinin bütün tədbirlərinə böyük həvəslə qatılan Tibbi mikrobiologiya və immunologiya kafedrasının baş müəllimi, İctimai səhiyyə fakültəsinin həmkarlar təşkilatının sədri Səidə Hacıyeva kursantların vətənə sədaqət andı içməsinin onda həmişə fəxarət hissi yaratdığını deyib.

Gənc kursantlar Hərbi anda, xalqımıza və vətənimizə həmişə sadiq olacaqlarına, orduda şərəflə xidmət edəcəklərinə söz veriblər.

# Serbiyalı alim tələbələrimizə mühazirə oxuyub

**Serbiyanın tanınmış alimlərindən biri, Kragujevac Universitetinin Tibb elmləri fakültəsinin professoru Vladimir Jurisiç universitetimizin Biokimya kafedrasının qonağı olub.**



Professor Jurisiç 2-ci kurs tibb ixtisası tələbələrinə "Laktatdehidrogenaza fermentinin onkoloji xəstəliklərin müalicəsi və diaqnostikasında rolu" mövzusunda geniş mühazirə oxuyub. O, tələbələrlə bu fermentin şiş hüceyrələrinin enerji mübadiləsindəki rolu, həmçinin diaqnostik və terapevtik əhəmiyyəti barədə son elmi bilikləri bölüşüb. Mühazirə tələblər tərəfindən böyük marağa səbəb olub.

Qeyd edək ki, professor Jurisiç beynəlxalq elmi ictimaiyyətdə böyük nüfuza malikdir. Google Scholar məlumatına görə, onun H-indeksi 39, son 5 illik H-indeksi isə 28-dir. Bu rəqəmlər alimin elmi işlərinə edilən çoxsaylı istinadların və davamlı elmi fəaliyyətinin göstəricisidir.

Alimin elmi məqalələri kliniki immunologiya, onkologiya, hematologiya və biokimya sahələrini əhatə edir. O xüsusilə şiş markerləri, immun hüceyrə reaksiyaları, molekulyar və biokimyəvi şiş diaqnostikası istiqamətində mühüm kəşfləri ilə tanınır. Onun tədqiqatları xərçəngin erkən diaqnostikası və müalicə strategiyalarının təkmilləşdirilməsinə yönəlib.

# Pakistanlı professorun elmi məruzəsi maraqla qarşılanıb



Universitetimiz beynəlxalq əməkdaşlığa həmişə xüsusi önəm verir və bu istiqamətdə həyata keçirilən işlər nəticəsində mütəmadi olaraq xarici mütəxəssislərin mühazirə və seminarları təşkil olunur.

Akademik mübadilə proqramı çərçivəsində ATU-nun bu dəfəki qonağı Pakistan İslam Respublikasının Svabi Universitetinin Kimya fakültəsinin professoru Abdur Rauf olub. Professor "Diospyros lotus (Qafqaz xurması) bitkisindən alınan dimer naftoxinonların dərman preparatlarının hazırlanmasında əhəmiyyəti" mövzusunda məruzə ilə çıxış edib. Onun təqdimatı müəllim və tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

Bundan başqa, professor A.Rauf Əczaçılıq fakültəsinin tələbə və magistrantları üçün "Bioloji fəal maddələrin identifikasiyasında infraqırmızı və nüvə-maqnit rezonans spektroskopiyasının tətbiqi" mövzusunda mühazirə oxuyub. Təqdimatdan sonra o, tələbələrin suallarını cavablandıraraq mövzu ilə bağlı geniş izahlar verib.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) birinci kurs tələbələrimiz üçün icbari tibbi sığorta mövzusunda maarifləndirmə sessiyaları təşkil edib. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) və ATU-nun dəstəyi ilə keçirilən tədbirin əsas məqsədi tibb sahəsində təhsil alan gənclərin icbari tibbi sığorta sistemi barədə məlumatlılığını artırmaq olub. Tədbirə ümumilikdə 600-dən çox tələbə qatılıb.**

# İcbari tibbi sığorta ilə bağlı maarifləndirmə sessiyaları keçirilib



Tədris işləri üzrə prorektor Anar Ağayev bu cür sessiyaların tələbələrin gələcək peşə fəaliyyətinə mühüm töhfə verəcəyini qeyd edib.

Agentliyin İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova tədbirin təşkilində dəstəyə görə KOICA və ATU rəhbərliyinə minnətdarlığını bildirib. O, icbari tibbi sığortanın əhəmiyyətli səhiyyə islahatlarından biri olduğunu vurğulayıb və gələcəyin həkimlərinin bu sistemin mühüm iştirakçıları sırasında yer aldığını qeyd edib.

KOICA Azərbaycan nümayəndəliyinin direktoru Sulim Hvanq çıxışında təşkilatın Azərbaycanla uzunmüddətli əməkdaşlıq təcrübəsinə toxunaraq, bu sessiyaların ölkənin səhiyyə sisteminə əhəmiyyətli dərəcədə töhfə verdiyini söyləyib.

KOICA Məzunlar Assosiasiyasının (KOAZ) prezidenti, TƏBİB-in Tibb müəssisələrində təlimlərin idarəolunması şöbəsinin müdiri Emil İskəndərov isə KOICA ilə Azərbaycan arasında səhiyyə sahəsində mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq, bu istiqamətdə layihələrin davamlı olacağına inandığını deyib.

Açılış mərasimindən sonra tələbələrə "İcbari tibbi sığorta nədir?" mövzusunda təqdimat nümayiş etdirilib, həmçinin icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə qaydalarını izah edən animasiyalar göstərilib. Sessiyanın sonunda isə tələbələrin əldə etdikləri bilikləri möhkəmləndirmək məqsədilə interaktiv oyun keçirilib və qaliblər xüsusi hədiyyələrlə mükafatlandırılıb.

# Türkiyəli və azərbaycanlı travmatoloq-ortopedlər bir araya gəlib




Travmatologiya və ortopediya kafedrası və Qalça-Diz Artroplastika Assosiasiyasının birgə təşkilatçılığı ilə 19-cu "İrəli artroplastika kursu" və 2-ci Türkiyə-Azərbaycan Artroplastika Günləri keçirilib.

Tədbir Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin Dövlət himnlərinin səsləndirilməsi ilə öz işinə başlayıb. 27 sentyabr – Anım Günü münasibətilə, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş qəhrəmanlarımızın, o cümlədən Azərbaycan Tibb Universitetinin 18 məzun və tələbəsinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış nitqi ilə çıxış edən Travmatologiya və ortopediya kafedrasının müdiri, professor Cəfər Nəsirli bildirib ki, bir çox sahələrdə olduğu kimi, tibb elminin travmatologiya və ortopediya sahəsində də Türkiyə və Azərbaycan əməkdaşlığı xüsusi diqqət mərkəzindədir.

Sonra Qalça-Diz Artroplastika Assosiasiyasının sədri, professor İbrahim Tunçay tədbirin əhəmiyyəti və iki ölkə arasında tibb sahəsində əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüb.

İki gün davam etmiş "İrəli artroplastika kursu", bir il əvvəl keçirilmiş "Təməl ortopediya kursu"nun davamı olaraq təşkil olunub.

Kurs çərçivəsində Azərbaycan və Türkiyədən dəvət olunmuş bir çox professor və müəllimin iştirakı ilə artroplastika üzrə təcrübəli mütəxəssislər həm nəzəri, həm də praktik biliklərini bölüşüblər. Dəyirmi masa müzakirələri və təqdimatlar şəklində keçirilmiş sessiyalar iştirakçılar üçün dəyərli təcrübə mübadiləsinə imkan yaradıb.

Toplantının sonunda Azərbaycan Tibb Universitetinin rəhbərliyi tərəfindən ölkəmizdə müasir travmatologiya və ortopediya elminin inkişafına və həkimlərin ixtisaslaşmasına verdiyi töhfələrə görə qonaq doktorlara təşəkkür plaketləri təqdim olunub.

# Nevrologiya kafedrası beynəlxalq konqresdə xüsusi diploma layiq görülüb

**Bu yaxınlarda Portuqaliyanın paytaxtı Lissabonda 36-cı Beynəlxalq Epilepsiya Konqresi keçirilib. Dünyanın ən nüfuzlu tibbi tədbirlərindən biri hesab olunan Konqres Epilepsiya Əleyhinə Beynəlxalq Liqa (ILAE) tərəfindən təşkil olunub.**

**Tədbirdə 120-dən çox ölkədən 4200-dən artıq həkim və mütəxəssis iştirak edib, elmi sessiyalar isə 500-dən çox beynəlxalq alim tərəfindən aparılıb.**



Konqres çərçivəsində universitetimizin Nevrologiya kafedrası yüksək mükafata layiq görülüb. Belə ki, 2000-ci ildən ILAE-nin Azərbaycan bölməsinin rəsmi nümayəndəliyi – Epilepsiya Əleyhinə Azərbaycan Liqası kimi fəaliyyət göstərən kafedranın 25 illik uğurlu elmi-tədqiqat işləri, beynəlxalq nəşrləri, həmçinin təşkil etdiyi seminar və təlimlər xüsusi qiymətləndirilib. Bu münasibətlə Nevrologiya kafedrası ILAE-nin xüsusi diplomu ilə təltif edilib. Diplom konqresin Baş Assambleyasında ILAE prezidenti, professor Helen Cross tərəfindən ATU-nun Nevrologiya kafedrasının dosenti, beynəlxalq liqanın Azərbaycan bölməsinin katibi Şəhla Məlikovaya təqdim olunub.

Dosent Ş.Məlikova, həmçinin konqresin nəzdində keçirilən və ILAE idarə heyəti tərəfindən təşkil edilən Liderlik İnkişafı Kursunu da uğurla başa vurub.

Qeyd edək ki, Nevrologiya kafedrasının əsas elmi istiqamətlərindən biri hamilələrdə epilepsiyanın öyrənilməsidir. Belə ki, kafedra müdiri, professor Aytən Məmmədbəyli və dosent Ş.Məlikovanın apardığı tədqiqatların nəticələri dəfələrlə beynəlxalq konqreslərdə təqdim olunub, PubMed, Web of Science, Scopus bazalarında indeksləşən yüksək impakt faktorlu jurnallarda dərc edilib. Məqalələrə dünyanın aparıcı elmi jurnallarında geniş istinad olunub və ümumi sitat sayı 100-ə çatıb.

36-cı Beynəlxalq Epilepsiya Konqresində də bu tədqiqatın yeni nəticələri təqdim olunaraq beynəlxalq mütəxəssislər tərəfindən geniş müzakirə edilib.

# "Müharibə vaxtı əsas məqsədimiz ölüm və əlillik faizini azaltmaq idi"

## Professor Məcid Məsimov: Travmatologiyada etdiyimiz yenilik sayəsində bir çox hərbçinin əl-ayaqlarını saxlamağa nail olduq



**Statistik məlumatlara görə, dünyada ölümə səbəb olan xəstəliklər arasında travmatoloji zədələnmələr ürək-damar və onkoloji xəstəliklərdən sonra üçüncü yeri tutur. Aparılan araşdırmalardan belə qənaətə gəlinib ki, avtomobil icad ediləndən bəri yol qəzası zamanı alınan travmalardan həlak olanların sayı bəşəriyyət yaranandan müharibələrdə həlak olanların sayını keçib. Odur ki, travmatologiya sahəsi öz aktuallığı ilə həmişə diqqət mərkəzində olub.**

Travmatologiyada mövcud problemlər, onların aradan qaldırılması yolları, əldə olunmuş nailiyyətlər, eləcə də ölkəmizdə travmatologiya sahəsində vəziyyətlə bağlı Azərbaycan Tibb Universitetinin Travmatologiya və ortopediya kafedrasının professoru Məcid Məsimovun fikirlərini öyrəndik.

Professorun bildirdiyinə görə, zaman keçdikcə, texnologiyalar inkişaf etdikcə, travmalar arasında da fərqlilik yaranmağa başlayıb: "Belə ki, klassik travmalarla müasir travmalar arasında ciddi fərqlər var. Klassik travmalara ayaq ilişib yıxılmaqla, pilləkəndən sürüşüb düşməklə və s. əmələ gələn adi travmalar aiddirsə, müasir travmalar zamanı politravmalar, çoxsaylı travmalar baş verir. Məsələn, avtomobil saatda 120-150 km sürətlə gedərkən digər avtomobillə toqquşur, hansısa maneəyə dəyir və avtomobilin içərisindəkilər çoxsaylı travmalar alır. Buraya kəllə-beyin, döş qəfəsinin daxilində yerləşən orqanların zədələnməsi, qarın boşluğunda, dayaq-hərəkət sistemində yaranan travmalar da daxildir. Müasir travmada, demək olar ki, bir insanın bütün sistemləri sıradan çıxır. Təbii ki, belə olan halda, onun müalicəsi də çox mürəkkəbdir. Travmaların çoxsaylı olması, uzunmüddətli müalicə və çox vəsait tələb etməsi bu problemi aktuallaşdırır".

İnsanlar bu cür travmalar alan zaman nə etmək lazım olduğu barədə də professor öz fikirlərini bizimlə bölüşdü: "Bu cür situasiyalarda zaman faktoru önə çıxır. Belə ki, çoxsaylı travma alan şəxs qısa zaman ərzində müalicə müəssisəsinə çatdırılmalıdır. Həmin vaxt ilkin tibbi yardımın böyük əhəmiyyəti var.

Tutaq ki, xeyli qan itirib. Onda maddələr mübadiləsi pozulub, oksigen çatışmazlığı var. Bu zaman tibbi yardım fərqli olmalıdır. Bildiyimiz qaydada - xəstə xərəkdə götürülüb, xəstəxanaya aparılsın - olmamalıdır. Xəstənin həyatı ilk tibbi yardımın keyfiyyətindən asılıdır. Dünya praktikasında çoxsaylı travmalar alan xəstələr sanitar-aviasiya, xüsusi helikopterlər vasitəsilə müalicə müəssisəsinə aparılır. Onlar xüsusi şəraiti, müasir avadanlığı olan xəstəxanalara yerləşdirilməli, müalicəsi bitənədək xüsusi hazırlığı olan mütəxəssislərin nəzarətində olmalıdırlar. Yəni xəstə eyni otaqda müayinə və müalicə olunmalıdır ki, çox hərəkət etməsinin qarşısı alınsın, əlavə travmatörədici faktorlar aradan qaldırılsın".

Müsahibimiz Birinci Qarabağ müharibəsi zamanı tibbi kadrların çatışmazlığından, bu səbəbdən xeyli problemlərlə üzləşdiklərindən, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ATU-da Hərbi tibb fakültəsinin yaradılmasından sonra bu sahədə vəziyyətin yaxşılaşmasından da söhbət açdı. Bildirdi ki, həmin kadrlar İkinci Qarabağ müharibəsində öz sözünü peşəkarlıqla deyib. Məhz onların fədakarlığı sayəsində ölüm və əlillik faizi xeyli aşağı düşüb: "Birinci Qarabağ



müharibəsinin aktiv fazası 1992-1994-cü illəri əhatə edir. Əvvəllər Mərkəzi Hərbi Hospital Zaqafqaziya Hərbi Hava Qüvvələrinin tabeliyində fəaliyyət göstərirdi. Hospital Azərbaycanın yurisdiksiyasına keçən zaman mən Rusiyada idim. Vətənə qayıtdım və bir mütəxəssis kimi könüllü xidmətə yollandım. Həmin vaxtlar hərbi travmatoloq yox idi. Yeganə mütəxəssis idim. Səhiyyə Nazirliyində Elmi şöbəyə və orduda travmatologiya sahəsinə rəhbərlik edirdim. Təsəvvür edin, 1992-1994-cü illər ərzində Mərkəzi Hərbi Hospitala 36 min yaralı hospitalizasiya olunmuşdu. Onların 75 faizi dayaq-hərəkət sisteminin zədələnməsi ilə daxil olanlar idi. Bunların da 55-60 faizini müştərək travmalılar təşkil edirdi. Belə bir vəziyyətdə kollektivimiz gecə-gündüz çalışırdı.

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də hərbi tibb kadrlarının yetişməsi üçün


第三十一届国际军事医学大会
XXXI. INTERNATIONAL CONGRESS ON MILITARY MEDICINE
XXXI. CONGRES INTERNATIONAL DE MEDECINE MILITAIRE
XXXI. CONGRESO INTERNACIONAL DE MEDICINA MILITAR

CERTIFICATE OF CONTRIBUTION

TITLE: Reconsructive-Restorative Operations Since the Hard Combatant Trauma of Extremeties

AUTHOR: MADJID MASSIMOV et al.

President of XXXI. International Congress on Military Medicine

General Secretary of International Committee of Military Medicine

Azərbaycan Tibb Universitetində Hərbi tibb fakültəsinin yaradılması oldu. Onun uzaqgörən siyasəti nəticəsində hərbi həkimlərimiz İkinci Qarabağ müharibəsində şərəflə xidmət edib, qələbənin qazanılmasına öz töhfələrini verdilər. Mən də kadrların hazırlanmasında bir mütəxəssis kimi əlimdən gələni etdim".

M.Məsimov Birinci Qarabağ müharibəsi zamanı özünün yaratdığı yeni texnologiyanın tətbiqi və bu texnologiyanın üstün cəhətləri barədə məlumat verdi: "Müharibə vaxtı əsas məqsədimiz ölüm və əlilliyin faizini aşağı salmaq, amputasiya olunmanın qarşısını almaq idi. Buna da nail olduq. Protokola görə amputasiya olunmalı ətraflar, yaratdığımız yeni texnologiya sayəsində saxlanıldı. Nə qədər hərbçi hazırda əl-ayaqları yerində, heç bir problemlə üzləşmədən öz həyatlarına davam edir. Konsepsiyamız ona əsaslanırdı ki, işemik qanazlığı zamanı orqanizm öz rezervliyini çalışdırır. İşləməyən kapilyarlar açılır, xırda damarlara çevrilir. Ona görə də cərrahi işlənmənin necə aparılmasından çox şey asılıdır".

Professorun travmatologiya sahəsindəki yeniliyi beynəlxalq hərbi mütəxəssislərin diqqətini çəkir. Onu 1996-cı ildə 123 dövlətdən nümayəndələrin iştirak etdiyi XXXI Beynəlxalq Hərbi Tibb Konqresinə dəvət edirlər. M.Məsimova iki dəfə çıxış etmək şəraiti yaradılır. Onun "Azərbaycan Respublikasında hərbi travmatologiyanın bəzi aspektləri", "Ətraflarda ağır döyüş travmasından sonra rekonstruktiv-bərpaedici əməliyyatlar" mövzularındakı çıxışları rezonans doğurur və böyük marağa səbəb olur. Təşkilatçılar alimin elmi araşdırmalarını yüksək qiymətləndirərək, onu "Töhfə sertifikatı" ilə mükafatlandırırlar.

Yazının sonunda qeyd edək ki, bu gün də insanların sağlamlığının keşiyində dayanan 70 yaşlı Məcid müəllimin Qarabağ müharibəsinin gedişində qazandığı elmi nailiyyətləri haqda monoqrafiyası çap olunmaq ərəfəsindədir.

**Qabil ABDULLAYEV**




# Azərbaycan pediatriyasının uğurları beynəlxalq konqresdə təqdim edilib

**Dünyada uşaq sağlamlığı xidmətləri, xüsusilə də profilaktik tibb, vaksinasiya və ümumilikdə ana-uşaq sağlamlığı müasir pediatriyanın öncül məsələlərindəndir.**

Bu günlərdə Türkiyənin İzmir şəhərində bir çox ölkələrdən uşaq sağlamlığı və xəstəlikləri üzrə tədris mərkəzləri, eləcə də aləqəli təşkilat və qurumları təmsil edən mütəxəssislərin iştirakı ilə Beynəlxalq İzmir Pediatriya Konqresinin builki – ikinci toplantısı keçirilib.

Dokuz Eylül Universitetinin ev sahibliyi ilə təşkil olunan və əsas mövzusu "Ətraf mühit, iqlim dəyişikliyi və uşaq sağlamlığı" olaraq müəyyən edilən konqresdə ölkəmizi təmsil edən Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) nümayəndələri – APA-nın sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, MDB dövlətlərinin Nadir Xəstəliklər üzrə Konsorsium şurasının üzvü, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə və Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Şəhla Balayeva Azərbaycanda uşaq sağlamlığı sahəsində aparılan mühüm elmi-tədqiqat işləri və müasir yanaşmaları, həyata keçirilən profilaktik tədbirlər və gələcək hədəfləri beynəlxalq auditoriyaya təqdim ediblər.

T.Tağı-zadə tədbirdə moderator və məruzəçi kimi iştirak edib. O, ölkəmizdə uşaq sağlamlığı sahəsində əldə olunan nailiyyətlərdən bəhs edib, bu sahənin Azərbaycanda tarixi inkişafına toxunaraq, müasir dövrdə həyata keçirilən proqramların əhəmiyyətini vurğulayıb. Alim türk dünyasının gələcəyi üçün uşaqların sağlamlığının vacibliyinə toxunaraq, ətraf mühitin uşaqların fiziki və zehni inkişafına birbaşa təsir etdiyini, bu səbəbdən təmiz hava, su və təhlükəsiz yaşayış şəraitinin təmin edilməsinin prioritet məsələlər olduğunu diqqətə çatdırıb. "Bizim əsas vəzifəmiz sağlam gələcək nəsil yetişdirməkdir" deyən pediatr, "Bir millət, iki dövlət" prinsipinə sadiq qalaraq, hər iki ölkənin yeni nəslinin sağlamlığını təmin etmək üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb.

Çıxışında türk dünyasının uşaq həkimləri üçün ortaq layihə təklif edən T.Tağı-zadə belə layihələrin tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi və elmi inkişafa töhfələr verəcəyinə əminliyini ifadə edib.

Kafedra müdiri Ş.Balayeva isə "Məktəblilər arasında sağlamlıq problemlərinin yaranmasında ətraf mühit amillərinin rolu" mövzusunda çıxış edərək, tədqiqat nəticələrini auditoriyanın diqqətinə çatdırıb. Alim bildirib ki, müasir dövrdə məktəb mühitindəki amillər uşaqların sağlamlığı üçün ciddi təhlükə mənbəyinə çevrilib. Şəhərlərdə artan hava çirklənməsi, məktəb binalarında keyfiyyətsiz havalandırma və balanssız qidalanmanın təkcə tənəffüs yolları xəstəliklərini deyil, həm də allergik reaksiyaları və digər xroniki problemləri stimullaşdırdığını qeyd edib. O, məktəblilərin sağlam gələcəyini təmin etmək üçün təhsil ocaqlarında gigiyena və sanitar normalara ciddi riayət olunmasının zəruriliyini vurğulayıb, bu sahədə kompleks tədbirlərin görülməsinin əhəmiyyətinə toxunub.

Konqresdə azərbaycanlı mütəxəssislər mükafatlandırılıb. Onların məruzələri tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Azərbaycanlı alimlər konqresdə beynəlxalq tərəfdaşlar və həmkarları ilə səmərəli əməkdaşlıqlar qurub. PUADER-in idarə heyətinin sədri, İzmir Katip Çelebi Universitetinin professoru Bumin Dündar, Dokuz Eylül Universitetinin professoru Adam Aydın, Ege Universitetinin professoru Cam Balkan, eləcə də Atatürk Kültür Mərkəzi və Pediatriya Uzmanlıq Akademiyası Dərnəyinin təmsilçiləri konqresin yüksək səviyyədə təşkilinə və elmi-praktik diskussiyalara öz töhfələrini veriblər. Bu əməkdaşlıq platforması azərbaycanlı mütəxəssislərin qardaş ölkənin qabaqcıl alimləri və təşkilatları ilə gələcək layihələr üçün əlaqələrini möhkəmləndirməyə imkan verib. Tədbirdə iqlim dəyişikliyinin uşaq sağlamlığına təsirləri ilə bağlı kurslar da təşkil olunub, yüksək elmi səviyyəli tədqiqatlar təqdim edilib. Konqres çərçivəsində iclas və simpoziumlarda ümumi pediatriya və onun yan ixtisas sahələrində yeniliklər, müasir tətbiqlər, eləcə də uşaq psixiatriyası ilə bağlı mövzular, tez-tez rast gələnən cərrahi problemlər və onların müalicəsi kimi uşaq sağlamlığının hərtərəfli məsələləri müzakirə olunub.

# Stomatologiya fakültəsinin əməkdaşları üçün elmi seminar keçirilib



Sentyabrın 24-25-də Avstriya Tibb Universitetinin Vyana İnterdisiplinar Stomatologiya Məktəbi (VieSID) tərəfindən Stomatologiya fakültəsinin əməkdaşları üçün “Klinik Funksional Diaqnostika Seminarı” keçirilib.

İki günlük seminar proqramı çərçivəsində iştirakçılar anamnez toplama, əzələ palpasiyası, oklüzoqramma, kondiloqrafiya və digər funksional diaqnostika üsullarını canlı şəkildə təcrübədən keçiriblər. Bununla yanaşı, kraniomandibulyar disfunksiyaların diaqnostikası və müalicəsi üzrə həm nəzəri bilik, həm də praktiki bacarıqlar qazanıblar.

Tədris proqramı stomatologiya sahəsində tətbiq olunan müasir yanaşmaları özündə əks etdirərək VieSID konsepsiyasına əsaslanıb. Elmi seminarın yüksək səviyyədə keçirilməsinə “Azena Dental Consulting” təşkilati dəstək verib.

Qeyd edək ki, universitetimizdə stomatologiya sahəsində beynəlxalq təcrübənin tətbiqinə və müasir yanaşmaların ölkəmizdə inkişafına həmişə xüsusi diqqət yetirilir.

# İnternatura proqramı ilə bağlı müzakirələr aparılıb



Tibb və sağlamlıq elmləri təhsili kafedrasında “Tibb ixtisasında internatura proqramının tətbiqi və proqramın tərtibatı” mövzusunda təlim keçirilib.

Təlimi giriş sözü ilə kafedranın müdiri, dosent Samir Cavadlı açaraq internatura mərhələsinin əhəmiyyəti və bu proqramın həkimlərin peşəkar inkişafında rolu barədə məlumat verib. Daha sonra kafedra müdiri “Tibb ixtisasında internatura proqramının tətbiqi və proqramın tərtibatı” adlı təqdimatla çıxış edib.

Həmçinin Türkiyənin nüfuzlu universitetlərinin nümayəndələri internet üzərindən təlimə qoşularaq, öz təcrübələrini bölüşüblər. İzmir Ekonomi Universiteti Tibb fakültəsinin dekan müavini professor Önder Limon, Ege Universiteti Tibb fakültəsinin dekan müavini professor Burcu Barutçuoğlu və dosent Ozan Karaca internatura proqramının təşkilində beynəlxalq təcrübə haqqında çıxış edərək məsləhətlərini verib və təlimdə iştirak edən müəllimlərin suallarını cavablandırıblar.

Təlimin sonunda internatura proqramının tərtibatı, proqramın əsas komponentləri və strukturu barədə müzakirələr aparılıb.

# Əməkdaşımız beynəlxalq təlimdə iştirak edib



Tibbi və bioloji fizika kafedrasının müəllimi, assistent Şəbnəm Hacıyeva Böyük Britaniyanın paytaxtı Londonda keçirilən “Advanced Teaching Methodology and Skills Programme” adlı beynəlxalq təlim proqramında iştirak edib. Təlim SCL International College tərəfindən təşkil olunub.

Proqram çərçivəsində iştirakçılar müasir tədris metodikaları, tələbəyönümlü dərs planlaması, interaktiv öyrətmə strategiyaları və müəllim bacarıqlarının inkişafına dair intensiv sessiyalara qatılıblar. Həftəlik 15 saatdan ibarət olan təlim proqramını uğurla başa vuran Şəbnəm Hacıyeva sertifikata layiq görülüb. Rəsmi “Certificate of Completion” sənədi, proqramda iştirakın və uğurlu nəticələrin təsdiqidir.

Qeyd edək ki, bu kimi beynəlxalq təlimlər müəllimlərin pedaqoji bilik və bacarıqlarının artırılması ilə yanaşı, Azərbaycan təhsilinin dünya təcrübəsinə inteqrasiyası baxımından da mühüm əhəmiyyət daşıyır.

# Parodontologiya üzrə master-klass təşkil olunub



Azərbaycan Parodontologiya Cəmiyyətinin təşkilatçılığı ilə parodontologiya kurikulumu çərçivəsində rezidentlər üçün “Dişlər və implantlar ətrafında rezektiv parodontal cərrahiyyə” mövzusunda master-klass keçirilib.

Tədbir parodontoloq, tibb üzrə fəlsəfə doktoru Rüstəm Ağazadə tərəfindən aparılıb. Səhiyyə Nazirliyi tərəfindən davamlı tibbi təhsil üzrə akkreditasiya olunan master-klass Haleon və Vip-Dental şirkətlərinin təşkilati dəstəyi ilə baş tutub.

İştirakçılara nəzəri biliklərlə yanaşı, bioloji modellər üzərində tikiş texnikaları və rezektiv parodontal cərrahiyyənin əsas prinsipləri nümayiş etdirilib.

Belə tədbirlər rezidentlər üçün praktik bacarıqlarını inkişaf etdirmək, peşəkar təcrübələrini zənginləşdirmək və gələcək klinik fəaliyyətə hazırlıq baxımından böyük əhəmiyyət kəsb edir.

# Əczaçılar insan sağlamlığının keşiyində duran mütəxəssislərdir

## Dərman vasitələrinin təhlükəsizliyi problemi milli səviyyədən çıxaraq qlobal məsələyə çevrilib

**Hər il sentyabrın 25-də qeyd olunan Beynəlxalq Əczaçılar Günü 2009-cu ildə Beynəlxalq Əczaçılıq Federasiyası (International Pharmaceutical Federation (FIP)) tərəfindən İstanbulda keçirilən konqresdə təsis edilib.**

**Dünyada müxtəlif sahələrin populyarlaşması üçün xüsusi günlərin qeyd olunması ənənədir. Bu baxımdan, 25 sentyabrın Əczaçı Günü kimi qeyd olunması təqdirəlayiqdir. Əczaçılar həkimlərlə birlikdə insanların sağlamlığının keşiyində duran mütəxəssislərdir. Onların fəaliyyəti hər gün insan həyatını xilas etməyə və profilaktik tədbirlərlə xəstəliklərin qarşısını almağa yönəlir.**

Əhalinin təhlükəsiz dərman vasitələri ilə təmin edilməsi müasir dövrdə ən aktual məsələlərdən biridir. Statistikaya əsasən, dərman vasitələrinin təhlükəsizliyi problemi artıq milli səviyyədən çıxaraq qlobal problemə çevrilib. Həm də buna görə Beynəlxalq Əczaçılar Gününün qeyd edilməsi səhiyyə sistemində əczaçıların rolunu qiymətləndirmək üçün yaxşı bir fürsətdir və maarifləndirici istiqamətdir.

Elə biz də bu fürsətdən istifadə edərək Azərbaycan əczaçılığının tarixi, bu günü və gələcəyi, uğurları və problemləri ilə bağlı suallarımızı mütəxəssisə - Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanova ünvanladıq.



Azərbaycanın zəngin təbii ehtiyatlara, nadir bitkilərə, heyvanlar aləminə və minerallara sahib bir ölkə olduğunu deyən müsahibimiz, bu təbii sərvətlərin əsrlər boyu xalq təbabətinin və əczaçılığın inkişafına böyük təsir göstərdiyini vurğulayıb. O, Şərq təbabətinə söykənən Azərbaycan əczaçılığının dərin köklərə malik olduğunu xatırladaraq, hələ qədim alban dövründə yerli bitkilərdən hazırlanmış məcunların xüsusi saxsı qablarda Roma imperiyasına ixrac edildiyini, amma əczaçılığın inkişafında əsas mərhələnin XIX əsrdən başladığını bildirib: “Bu əsrdə sənaye Bakısında, eləcə də Azərbaycanın digər bölgələrində əczaçılıq inkişaf edirdi. Eyni zamanda balıqçılıq sənayesi genişlənmiş və məhz balıqçılıqla tanınan Neftçalanın Bankə qəsəbəsində 1850-ci ildə Azərbaycanda ilk aptek təşkil olunmuşdu. Bu inkişafla yanaşı, 1890-cı ildə Sabunçuda ilk xəstəxana açılmış və onun tərkibində ilk aptek fəaliyyətə başlamışdı. Qısa müddət ərzində – 1910-cu ilə qədər ölkədə 50-yə yaxın aptek fəaliyyət göstərirdi”.

Professor T.Süleymanov ölkəmizdə əczaçılıq təhsili və praktiki fəaliyyətinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə daha yüksək inkişaf mərhələsinə keçdiyini söyləyib: “Sonrakı illərdə isə Şərqdə ilk ali əczaçılıq təhsil ocağı – Azərbaycan Əczaçılıq İnstitutu yaradılıb və görkəmli dövlət xadimi Əziz Əliyev institutun ilk rəhbəri olub. II Dünya müharibəsi illərində institut Azərbaycan Tibb İnstitutuna birləşdirilərək, Əczaçılıq fakültəsi kimi fəaliyyətini davam etdirib. İndiyədək 6500-dən çox yüksək ixtisaslı əczaçı kadr yetişdirən fakültə müstəqillik dövründə öz ölkəmizlə yanaşı, region ölkələri – İran, Türkiyə, İraq və digər dövlətlər üçün peşəkar kadrlar hazırlayıb ki, bu da fakültənin beynəlxalq nüfuzunun göstəricisidir”.

Həmsöhbətimiz qazanılan nailiyyətlərdən, həmçinin mövcud problemlərdən və gələcək perspektivlərdən də söz açıb: “Ölkə başçısının göstərişi ilə ali əczaçılıq təhsilinin inkişafı üçün 5 illik strateji proqram hazırlanıb. Bu çərçivədə magistratura üzrə yeni ixtisasların – əczaçılıq kosmetologiyası, sənaye əczaçılığı analizi, dərmanların sənaye üsulu ilə hazırlanması və digər istiqamətlərin açılması planlaşdırılır. Əsas problemlərdən biri də əczaçılıq diplomlarımızın bütün ölkələrdə tanınması məsələsidir ki, bu istiqamətdə Təhsil və Səhiyyə nazirlikləri tərəfindən mühüm işlər görülür”.

Bundan əlavə, antibiotiklərin istifadəsi məsələsi də önəmli problemlərdəndir. Antibiotiklərin həkim təyinatı olmadan istifadəsi orqanizmdə rezistentlik yaradır və onların təsirini azaldır. Buna görə də antibiotiklərin yalnız həkim göstərişi ilə istifadəsi vacibdir. Avropa ölkələrində antibiotiklər reseptsiz satılmır, Azərbaycanda da yaxın gələcəkdə bu qərarın tətbiqi arzuolunandır.

Müasir dövrdə əczaçılığın rolunun yalnız dərman satışı ilə məhdudlaşmadığına diqqət çəkən mütəxəssis, bu sahənin dərman maddələrinin yaradılması, keyfiyyətinə nəzarət, dərmanların sənaye üsulu ilə istehsalı, kliniki sınaqlar, kosmetologiya və məhkəmə təbabəti sahələrini də əhatə etdiyini deyib. Yeni texnologiyalar dərman istehsalı və keyfiyyətinə nəzarətdə, həmçinin tədris prosesində geniş tətbiq olunur. Elektron reseptlər, dərmanların izlənmə sistemi ölkəmizdə artıq fəaliyyət göstərir və bu, dərman təhlükəsizliyinin təminində mütərəqqi addımdır. Gənclər bu istiqamətdə geniş imkanlara malikdir və əczaçılıq sahəsi onlara gələcəkdə həm elmi, həm də praktik fəaliyyət imkanı açır.

Saxta dərmanların mövcudluğu və dərmanların düzgün qaydada saxlanılmaması da ciddi problemlərdəndir. Dərmanların keyfiyyətinə nəzarət analitik xidmət tərəfindən həyata keçirilməli, saxlanma şəraitinə ciddi riayət olunmalıdır.

Müsahibimiz noyabrın 20-21-də Azərbaycan Əczaçılar Assosiasiyası tərəfindən ölkəmizdə əczaçılıq təhsilinin 85 illiyinə və Azərbaycan Tibb Universitetinin 95 illiyinə həsr olunmuş beynəlxalq konqres keçiriləcəyini və konqresdə əczaçılar, əczaçı alimlər, yeni dərman vasitələrinin yaradılması ilə məşğul olan mütəxəssislər, eləcə də tələbələr və rezidentlərin iştirak edəcəyini diqqətə çatdırıb.

Əminliklə vurğulayıb ki, zəngin keçmişə söykənərək müasir dövrdə də inkişafını davam etdirən Azərbaycan əczaçılığı zəngin tarixi, möhkəm elmi bazası və müasir yanaşmaları ilə regionun aparıcı sahələrindən biri olaraq qalmaqdadır.

**Arif MƏMMƏDLİ**

# Ürək-damar sistemi xəstəliklərinin risk faktorları

## Ürəyimizin "yaşa hələ" deməsini istəyiriksə, həyat tərzimiz sağlam olmalıdır

**İlk dəfə 1999-cu ildə Ümumdünya Ürək Federasiyasının təşəbbüsü ilə təşkil olunan Ümumdünya Ürək Günü əvvəllər sentyabrın son bazar günü qeyd edilirdi. 2011-ci ildən isə sentyabrın 29-da keçirilir. Hazırda ürək-damar sistemi xəstəlikləri dünyada ölümün və əlilliyin əsas səbəblərindən biridir. Təəssüf ki, Azərbaycan da bu sıradan kənarda deyil.**




ATU-nun Tədris Cərrahiyyə Klinikasının invaziv kardioloqu, tibb üzrə fəlsəfə doktoru Sara Bayramzadə "Təbib" qəzetinə açıqlamasında ürək-damar sistemi xəstəliklərinə ürəyin ritm xəstəlikləri, aritmiyalar, ürəyin qapaq xəstəlikləri, ürəyin işemik xəstəlikləri, ürəyin əzələ xəstəlikləri olan kardiomiopatiyaların aid edildiyini deyib. Bildirib ki, ürək-damar sistemi xəstəliklərinin yaranmasının risk amilləri qan təzyiqinin yüksəlməsi, qanda xolesterin və qlükozanın miqdarının artması, tütün istifadəsi və digər zərərli vərdişlər, artıq çəki, piylənmə və fiziki hərəkətsizlikdir.

Onun sözlərinə görə, ürək-damar sistemi xəstəliklərinin risk faktorları dəyişilə bilən və dəyişilə bilməyən olmaqla iki qrupa bölünür. Yaş, cins və irsiyyətlə bağlı ürəyin işemik xəstəlikləri dəyişilə bilməyən, yuxarıda da sadalanan - qanda yağların səviyyəsinin yüksəlməsi (məsələn, xolesterolun artması), yüksək qan təzyiqi (hipertoniya), tütün çəkmə, qeyri-sağlam qidalanma, artıq çəki və piylənmə, həddindən artıq az fiziki aktivlik, şəkərli diabet, mütəmadi alkoqol qəbulu isə dəyişilə bilən risk faktorlarına daxildir. Təəssüf hissi ilə deyə bilirik ki, ürəyin işemik xəstəlikləri yaşlı insanlarla yanaşı, gənclər arasında da geniş yayılıb. Bunun əsas səbəbləri arasında zərərli vərdişlər, enerji içkilərindən mütəmadi istifadə, aşırı alkoqol qəbulu, həmçinin irsiyyət faktoru xüsusi yer tutur. Təbii ki, dəyişilə bilməyən risk faktorları ilə mübarizə aparmaq çox çətindir. Amma dəyişilə bilən risk faktorlarını aradan qaldırmaq üçün həyat tərzinin dəyişməsi, sağlam həyat, sağlam qidalanma, fiziki aktivliyin artırılması, zərərli vərdişlərin məhdudlaşdırılması və tamamilə kəsilməsi, arterial təzyiqin, qanda şəkərin miqdarının normada saxlanılması önəmli nüanslardır.

Mütəxəssisin sözlərinə görə, ürək-damar sistemi xəstəliklərinə mənfi təsir göstərən amillərdən biri də stress və emosional gərginlikdir. Stresi azaltmaq üçün sağlam qidalanma, idman, stresli ortamlardan uzaq durmaq və açıq havada gəzmək məsləhət görülür.

Həddindən artıq stress, sevinc və kədər, yüksək emosional gərginlikdən sonra yaranan ürək patologiyaları Takotsubo kardiomiopatiyası adlanır və adətən geri dönəndir, müalicəsi protokola uyğun dərmanlarla aparıla bilir.

Ürək-damar sistemi xəstəliklərinin profilaktikası isə poliklinik qəbullarda pasiyentlərin risk faktorlarının dəyərləndirilməsi və qanda xolesterin səviyyəsinin yoxlanılması, EKQ və ExoKQ, Stress Ekq testin aparılmasından ibarətdir. Ürəyin işemik xəstəlikləri, qapaq xəstəlikləri, həmçinin kardiomiopatiyalar və ürək aritmiyaları bu qrup müayinələrlə aşkarlanır.

Ürəkdöyünmə, sinədə ağrı, başgicəllənmə və bayılma, fiziki hərəkət zamanı təngnəfəslik bəzən hansısa başqa bir xəstəliyin, bəzənsə ürək xəstəliyinin ilkin əlamətləridir. Xüsusilə də fiziki yüklə döş qəfəsində ağrı və fiziki hərəkətlə artan ağrı, fasilə verdikdə sakitləşən və sol qola, sol kürəyə, sinə nahiyəsinə yayılan ağrı ürəyin işemik xəstəliklərinin, miokard infarktın xəbərverici simptomlarıdır. Müasir dövrdə son protokollarla müalicə üsullarına və erkən diaqnostika metodlarının tətbiqinə baxmayaraq, yenə də ürək mənşəli ölümlər bütün dünyada ölümün birinci səbəbi olaraq qalmaqdadır. Bu nöqteyi-nəzərdən hər kəsin öz sağlamlığına ciddi yanaşması tövsiyə edilir.

Həmçinin az yağlı və duzsuz, şəkərsiz qidalardan istifadə, fiziki aktivlik və idman həyat tərzimizin əsas tərkib hissəsi olmalıdır.

# Əməkdaşımız Harvard Tibb Məktəbinin sertifikatını alıb



Oftalmologiya kafedrasının dosenti Nigar Sadıqova Harvard Tibb Məktəbi (Harvard Medical School - HMS) tərəfindən təşkil edilən beynəlxalq Tibb Tədrisinin Öyrədilməsi üzrə Təlim (Training to Teach in Medicine) sertifikat proqramını uğurla başa vurub.

Harvard Tibb Məktəbinin Postgraduate medical education bölməsi tərəfindən həyata keçirilən bu nüfuzlu təlimin məqsədi səhiyyə mütəxəssislərinin pedaqoji bacarıqlarını inkişaf etdirməkdən ibarətdir. Proqram müasir və sübutlara əsaslanan tədris metodikaları, dərs planlaşdırma və qiymətləndirmə strategiyaları, klinik və akademik mühitlərdə effektiv öyrətmə bacarıqları, beynəlxalq pedaqoji təcrübə mübadiləsi imkanlarını təqdim edir.

Qəbul üçün doktorluq dərəcəsi (MD, PhD, PharmD, DMD və s.) və ya səhiyyə sahəsində peşəkar ixtisas, eləcə də müəllimlik və ya rəhbərlik təcrübəsi tələb olunur. Namizədlər digər sənədlərlə yanaşı, üç esse etməlidirlər. Training to Teach in Medicine proqramında esselər birbaşa onlayn ərizə formasında yazılır, başqa sözlə, müraciət zamanı real vaxtda doldurulur. Qəbul prosesinə, həmçinin müsahibə mərhələsi daxildir və bu, seçimdə əsas rol oynayır. Təşkilatçıların məlumatına görə, 2024-2025-ci il qəbul mərhələsində rəqabət çox yüksək olub: 100 müraciətdən yalnız biri qəbul edilib.

İnteraktiv onlayn sessiyalar, canlı seminarlar, komanda əsaslı layihələr və fərdi Capstone project mərhələlərindən ibarət olan təlim proqramı altı ay ərzində davam edib. Kurs çərçivəsində proqramın həmsədri, professor Jeremy Richards, Mount Auburn Hospital-da tibb təhsili üzrə mütəxəssis Brian Persaud, İsrailin Beth Deaconess Tibb Mərkəzinin klinik müəllimi dr. Lauren Yang, eləcə də Harvard Tibb Məktəbinin tanınmış professor və ekspertləri, aparıcı fakültə nümayəndələri dərs deyiblər.

Əməkdaşımız proqram çərçivəsində keçirilən inteqrasiya layihəsində müxtəlif ölkələrdən olan iştirakçılarla birlikdə komanda işində iştirak edib. Onun təmsil olunduğu komandanın layihəsi 2-ci yerə layiq görülüb. Bu nailiyyət ATU-da tibbi təhsilin keyfiyyətinin yüksəldilməsinə, müasir tədris strategiyalarının tətbiqinə və beynəlxalq akademik əlaqələrin genişlənməsinə dəyərli töhfə kimi qiymətləndirilə bilər.

# "Tədqiqat metodları" fənni üzrə master-klass keçirilib

**Magistratura pilləsində tədris olunan "Tədqiqat metodları" fənninin daha səmərəli təşkili və müasir yanaşmaların tətbiqi məqsədilə master-klass təşkil olunub.**

Tədbir Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi məcburi fənn blokuna daxil olan "Tədqiqat metodları" fənninin tədrisi çərçivəsində keçirilib. Master-klassa Psixiatriya kafedrasının professoru Fuad İsmayılov və Əczaçılıq kimyası kafedrasının dosenti Fuad Məmmədov rəhbərlik ediblər.

Mühazirələr zamanı tədqiqat metodologiyasının aktual məsələləri, elmi işlərin planlaşdırılması və aparılması prinsipləri geniş müzakirə olunub. Eyni zamanda, farmasiya və tibb sahəsində beynəlxalq praktikadan nümunələr təqdim edilib.

Master-klassda həm professor-müəllim heyəti, həm də magistrantlar fəal iştirak edərək suallar verib, fikir mübadiləsi aparıblar. Magistrantlar fənnin praktik tətbiqi imkanları və elmi işlərin keyfiyyətinin artırılması yolları barədə fikirlərini bölüşüblər.

# "Uşaqlarda diabetik ketoasidoz" mövzusu müzakirəyə çıxarılıb



**Tədris Terapevtik Klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsi və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə "Uşaqlarda diabetik ketoasidoz" mövzusunda növbəti seminar təşkil olunub.**

Tədbirin açılışında Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov çıxış edərək, rezidentlərin bilik və bacarıqlarının artırılmasında belə seminarların önəmini vurğulayıb. Klinikanın baş həkimi Fəridə Hacıyeva seminarın mövzusu barədə məlumat verib və rezidentlərə uğurlar arzulayıb.

Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri Qoşqar İsmayılov pediatrik praktikada çox rast gələnən diabetik ketoasidozun təcili vəziyyətlərdən biri olduğunu deyib. Əlavə edib ki, xüsusilə payız mövsümündə rastgəlmə tezliyi artan virus infeksiyaları nəticəsində özünü daha çox büruzə verən diabetik ketoasidozun müalicəsini həm pediatrların, həm də təcili yardım həkimləri və reanimatoloqların bilməsi zəruridir.

Seminar çərçivəsində məruzəni uşaq endokrinologiyası ixtisası üzrə II kurs rezidenti Asya Məmmədli təqdim edib. O, çıxışında vurğulayıb ki, diabetik ketoasidozun diaqnozu və müalicəsi düzgün aparılmadıqda, dehidratasiya, elektrolik imbalansı, beyin ödemi, koma kimi ciddi klinik fəsadlara səbəb ola bilər. A.Məmmədli, diabetik ketoasidozun patofiziologiyası, rastgəlmə tezliyi, risk faktorları, differensial diaqnostikanın düzgün aparılmasının önəmindən də danışıb, müalicə və xəstələrin izlənməsi haqqında ətraflı məlumat verib.

Seminarda, həmçinin II Uşaq xəstəlikləri kafedrasının həkim-müəllimləri – Nigar İbrahimova, Aysel Süleymanlı və Terapevtik Klinikanın pediatriya və daxili xəstəliklər üzrə həkim-rezidentləri mövzu ətrafında öz fikirlərini bölüşüblər.



# Elmi Araşdırmalar Mərkəzində seminar təşkil olunub

**Sentyabrın 23-də universitetimizin Elmi Araşdırmalar Mərkəzində elmi seminar təşkil olunub. Seminarda dövlət proqramı iştirakçısı Aysel Bayramova Kibar "Karbon tetraklorid təsirindən yaranan testis zədələnməsinə qarşı kurkuminin qoruyucu təsiri" mövzusunda çıxış edib.**

Çıxış zamanı tədqiqatçının apardığı araşdırmalar əsasında karbon tetrakloridin testis toxumasına göstərdiyi zərərli təsirlər və bu təsirlərə qarşı təbii mənşəli maddə olan kurkuminin potensial qoruyucu xüsusiyyətləri ətraflı şəkildə təqdim olunub. Məlumat verilib ki, kurkumin antioksidant və iltihabəleyhinə xüsusiyyətləri ilə bu tip zədələnmələrin qarşısını almaqda əhəmiyyətli rol oynaya bilər.

Seminar iştirakçıları mövzu ətrafında fikir mübadiləsi apararaq, araşdırmanın elmi və praktik əhəmiyyətini yüksək qiymətləndiriblər.

# Birinci kurs tələbələri ilə tanışlıq görüşü keçirilib



**Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə birinci kurs tələbələri ilə tanışlıq görüşü baş tutub.**

Tədbirin əsas məqsədi yeni tələbələrin universitet həyatına adaptasiyasını sürətləndirmək, onları həm təhsil, həm də sosial fəaliyyət imkanları ilə tanış etmək idi. Görüş zamanı THİK-in nəzdində fəaliyyət göstərən müxtəlif tələbə klubları öz fəaliyyət istiqamətləri barədə təqdimatlar edərək, yeni tələbələrimizə akademik və şəxsi inkişaf baxımından faydalı ola biləcək layihələr, könüllülük proqramları və sosial tədbirlər barədə ətraflı məlumat veriblər.

Təqdimatlar zamanı vurğulanıb ki, belə fəaliyyətlər tələbələrin təşəbbüskar, yaradıcı və ictimai fəal gənclər kimi formalaşmasında mühüm rol oynayır. Eyni zamanda, bu cür görüşlər tələbələr arasında həmrəyliyin möhkəmlənməsinə və universitet həyatının daha maraqlı və mənalı keçməsinə şərait yaradır.

**Əczaçılıq toksikologiyası və kimya kafedrasının doktorantı Qəmər Məmmədbəyli Çində keçirilmiş "China - Central Asia conference on disease and health" adlı beynəlxalq konfransda iştirak edib.**

# Əməkdaşımız Çində münsiflər heyətində yer alıb




Konfrans yüksək səviyyədə təşkil olunub və çox məhsuldar keçib. Açılış nitqini konfransın sədri akademik Han Demin söyləyib. Tədbirə 30-dan çox xarici ölkədən tibb sahəsinin nümayəndələri, elm adamları və mütəxəssislər qatılıb. Konfrans çərçivəsində tibb sahəsindəki son yeniliklər, texnoloji nailiyyətlər və elmi-tədqiqat istiqamətləri ilə bağlı təqdimatlar dinlənilib, ümumilikdə 12 istiqamət üzrə plenar sessiyalarda müzakirələr aparılıb.

Q.Məmmədbəyli əczaçılığa dair plenar sessiyada münsiflər heyətinin üzvü kimi, Urumçi Tibb Universitetinin (UTU) tələbələrinin elmi çıxışlarını dəyərləndirib və diskussiyalarda yaxından iştirak edib. Həmçinin universitetin rektoru, professor Haji Akber Aisa ilə görüş baş tutub. Görüş zamanı ATU ilə Urumçi Universiteti arasında mövcud əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi perspektivləri müzakirə edilib, ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən imzalanmış qarşılıqlı əməkdaşlıq haqqında memorandum təqdim olunub.

Bundan əlavə, Q.Məmmədbəyli UTU-nun Beynəlxalq əlaqələr ofisinin əməkdaşları ilə görüşərək, universitetin elmi və akademik fəaliyyəti ilə yaxından tanış olub. Tədbir elmi biliklərin mübadiləsi, beynəlxalq əlaqələrin qurulması və universitetlərarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyət daşıyırdı.

# Tələbəmiz ABŞ-da ən son tədqiqat metodları ilə tanış olub



**II Müalicə-profilaktika fakültəsinin VI kurs, 220A -10b qrup tələbəsi Səbinə Həsənzadə yay tətili ərzində Amerikanın Florida ştatında yerləşən Mayo Clinic-in Transplantologiya departamentində elmi-tədqiqat proqramında iştirak edib. Bu tədqiqat proqramı çərçivəsində çoxsaylı tədqiqatlar üzərində çalışaraq, ABŞ-nin ən son tədqiqat metodları, yeni tibb texnolagiyaları ilə tanış olub. Eyni zamanda tədqiqatlarının nəticəsi olaraq Q1 kateqoriyalı PubMed indeksli jurnalda məqaləsi çap edilib.**

S.Həsənzadə elmi-tədqiqat proqramı müddətində yalnız tədqiqat aparmaqla kifayətlənməyib, müxtəlif xəstələr üzərində müşahidələr apararaq onların klinikada olduqları müddətdə transplantasiyaya gedən yolun bütün mərhələlərini klinik olaraq təsvir edən təqdimat hazırlayıb. Həmin təqdimat böyük maraq və yüksək qiymətləndirmə ilə qarşılanıb.

Həmçinin Mayo Clinic-də keçirilən digər seminar və toplantılarda da iştirak edərək, dünyanın müxtəlif ölkələrindən dəvət olunmuş professor və alimlərdən tibbin perspektivlərini və ən son yeniliklərini öyrənib.

Tələbəmiz iştirak etdiyi bütün seminar və konfranslarda universitetimizdən və ölkəmizdən qürurla danışıb. S.Həsənzadə bu proqramda iştirak edə bilməsi üçün ona şərait yaradan universitetin rektoru, professor Gəray Gəraybəyli başda olmaqla, bütün professor-müəllim heyətinə, xüsusilə Elmi işlər üzrə prorektor Məlahət Sultanova, Tədris departamentinin rəhbəri Kamandar Yaqubov və fakültənin dekanı İsrail Məhərrəmbəyliyə öz təşəkkürünü bildirib.

# Rezidentimiz Fransada beynəlxalq konqresdə iştirak edib

**Stomatologiya fakültəsi, Endodontiya ixtisası üzrə 1-ci kurs rezident Zivər İbrahimli Fransada keçirilən Avropa Endodontiya Cəmiyyətinin (ESE) 22-ci İkiillik Konqresində (Paris, 2025) iştirak edib.**




Gənc mütəxəssis tədbirdə "Temporomandibular oynağın disfunksiyasının endodontik müalicəyə təsiri" mövzusunda poster təqdim edərək elmi müzakirələrdə çıxış edib.

Rezidentlərimizin beynəlxalq səviyyəli tədbirlərdə uğurlu iştirakı onların nəzəri və praktiki biliklərinin inkişafına, həmçinin universitetin dünya elmi ictimaiyyətində tanınmasına mühüm töhfə verir.

# 6 ayda 700-dən çox vitrektomiya əməliyyatı icra olunub

**Müasir oftalmologiyada gözün torlu qişası və şüşəyəbənzər cismi ilə bağlı xəstəliklərin müalicəsində ən effektiv müalicə üsullarından biri sayılan vitrektomiya əməliyyatı icbari tibbi sığorta ilə qarşılanır. Vitrektomiya şüşəyəbənzər cismin qismən və ya tam çıxarılmasını nəzərdə tutan cərrahi əməliyyatdır. Bu cərrahi müdaxilə ilə pasiyentlərin görmə qabiliyyəti bərpa oluna və ya onun pisləşməsinin qarşısı alına bilir. Cari ilin ilk altı ayı ərzində icbari tibbi sığorta hesabına 700-dən çox vitrektomiya əməliyyatı icra olunub.**



Görmənin kəskin pisləşməsi, görmə sahəsinin daralması, göz önündə pərdə, qara nöqtə, kölgə və ya qığılcımların görünməsi, gözlərin travmatizasiyası hallarında dərhal həkim-oftalmoloqa müraciət etmək tövsiyə olunur.

Oftalmoloji müayinələr gözün arxa seqmentində – torlu qişada və şüşəyəbənzər cismin daxilində olan patologiyaları müəyyən etməyə imkan verir. İcbari tibbi sığorta ilə qarşılanan bu müayinələrə oftalmoskopiya, optik koherent tomoqrafiya (OCT - infraqırmızı işıq şüası ilə göz toxumasının skan edilməsi, başqa sözlə, qeyri-invaziv görüntüləməsi), göz almasının ultrasəs müayinəsi, gözün angiografiyası və görmə itiliyi testləri daxildir. Bu diaqnostik metodlar nəticəsində tor qişa qopmaları, hemoftalm (intravitreal qanaxmalar), şəkərli diabet fonunda yaranan retinopatiyalar, makulyar yırtıq, epiretinal fibroz, göz travmaları və digər patologiyalar aşkarlanarsa, vitrektomiya əməliyyatı tövsiyə olunur.

Əməliyyat mikroinvaziv üsullarla, adətən lokal anesteziya altında icra olunur. Əməliyyatın müddəti əsas xəstəlikdən, yanaşı oftalmoloji patologiyanın mövcudluğundan asılıdır və orta hesabla 1 saatdan 3 saata qədərdir. Əməliyyat zamanı şüşəyəbənzər cisim çıxarılır, yaranmış boşluğa xüsusi balanslaşdırılmış duz məhlulları, süni polimerlər: silikon yağı və ya qaz daxil edilir. Bu maddələr göz boşluğunda genişlənərək torlu qişanın normal vəziyyətinin bərpasına və yerində saxlanmasına kömək edir. Qeyd edək ki, stasionar xidmət zamanı dərman və tibbi sərfiyyat da icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxildir. Vitrektomiya sonrası pasiyentlər qısa müddət ərzində normal həyat tərzinə qayıda bilirlər.

İcbari tibbi sığorta hesabına vitrektomiya əməliyyatı tibbi göstəriş və həkim təyinatı əsasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə müqavilə olan tibb müəssisələrində (özəl və müvafiq dövlət orqanlarının tabeliyindəki) icra olunur. Qeyd edək ki, bu siyahıya Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası da daxildir.

## Allah rəhmət eləsin!

I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti Taryel Ömərova atası **İskəndər müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları Türk Qastroenterologiya Dərnəyinin fəxri başqanı **professor Burhan Sahinin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları kafedranın assistenti Elmira xanıma qardaşı **Fəxrəddinin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının kollektivi kafedranın laborantı Qızbəst Şahımova ya anası **Züleyxa xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın baş müəllimi Gülşən Hacıyevaya qardaşı **Əlöddin Hacıyevin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Bahadur Həsənova əzizi **Firuddin Abbasovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Mamalıq və ginekologiya kafedrasının əməkdaşları kafedranın dosenti Fəridə Abbasovaya anası **Solmaz Səlimxanovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0016
Sayı 800